12-13 fevral 2022-ci il tarixlərində Bosniya və Herseqovinyanın paytaxtı Sarayevo şəhərində cüdo idman növü üzrə açıq Avropa turniri keçirilib.

26 ölkə, 331 idmançının (197 kişi,134 qadın) mübarizə apardığı açıq Avropa turnirində Azərbaycan yığma komandası da iştirak edib.

Turnirdə Təhsil Nazirliyinin 1 nömrəli idman liseyinin idmançıları, gənclərdən ibarət cüdo üzrə Azərbaycan milli yığma komandasının tərkibində ölkəmizi təmsil edən 60 kq çəki dərəcəsində Turan Bayramov qızıl, həmin çəki dərəcəsində Samir Piriyev isə gümüş medal qazanıb.